**https://doi.org/10.58225/tim.2026-2-162-166**

**İ.İ.Şükürlü**
***PhD, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)***
***Sukurluilqar@gmail.com***

*Məqalə redaksiyaya daxil olub 28.03.2026*
*The article was received by editorial board on 28.03.2026*
*Статья принята к печати 28.03.2026*

# ƏMƏK BAZARI VƏ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR: NƏZƏRİ YANAŞMA

**Xülasə**

*Əmək bazarı müasir iqtisadi mühitdə makroiqtisadi göstəricilər sisteminin əsas komponentlərindən biri kimi çıxış edir və ölkənin iqtisadi artımı, məşğulluq səviyyəsi, işsizlik göstəriciləri, əmək məhsuldarlığı və sosial rifah ilə birbaşa əlaqəlidir. Bu bazarın vəziyyəti iqtisadi resursların səmərəli istifadəsini və ÜDM-in potensial səviyyəsini müəyyən edir, həmçinin dövlətin fiskal və monetar siyasət alətləri vasitəsilə iqtisadi sabitliyin təmin olunmasında mühüm rol oynayır. Əmək bazarı həm aktiv, həm də passiv məşğulluq siyasətlərinin həyata keçirilməsi, insan kapitalının inkişaf etdirilməsi, texnoloji tərəqqi və rəqəmsal iqtisadiyyatın tətbiqi, həmçinin regional balansın qorunması kimi sahələrdə strateji əhəmiyyət kəsb edir. İşçi qüvvəsinə olan tələbin və təklifin qarşılıqlı təsiri nəticəsində formalaşan iqtisadi münasibətlər, məşğulluq səviyyəsi və əmək məhsuldarlığı göstəriciləri vasitəsilə iqtisadi artım, investisiya, istehlak və qiymət sabitliyinə təsir göstərir. Nəticə olaraq, əmək bazarı ölkənin makroiqtisadi sabitliyinin təmin olunmasında, iqtisadi artımın təşviqində və sosial-iqtisadi rifahın yüksəldilməsində əsas rol oynayır, eyni zamanda insan kapitalının inkişafı, texnoloji tərəqqi və regional iqtisadi balansın qorunması kimi strateji sahələrdə də həlledici əhəmiyyətə malikdir.*

***Açar sözlər:*** *əmək bazarı, məşğulluq səviyyəsi, işsizlik göstəriciləri, əmək məhsuldarlığı, makroiqtisadi sabitlik.*

Müasir iqtisadi sistemdə əmək bazarı makroiqtisadi göstəricilər çərçivəsində ölkənin iqtisadi inkişafı, məşğulluq səviyyəsi və sosial rifahın formalaşmasında həlledici rol oynayan əsas komponent kimi nəzərə alınır. Əmək bazarı işçi qüvvəsinə olan tələbin və təklifin qarşılıqlı təsiri nəticəsində formalaşan iqtisadi münasibətlər məcmusudur və bu münasibətlər ölkənin ümumi iqtisadi inkişaf səviyyəsinin müəyyən edilməsində mühüm rol oynayır. Makroiqtisadi analizdə əmək bazarı göstəriciləri iqtisadi artımın, sosial rifahın və iqtisadi sabitliyin qiymətləndirilməsi üçün əsas indikatorlardan biri hesab edilir. Bu baxımdan əmək bazarının vəziyyəti ümumi daxili məhsulun (ÜDM) dinamikası, məşğulluq səviyyəsi, işsizlik göstəriciləri, əmək məhsuldarlığı və əməkhaqqı səviyyəsi kimi makroiqtisadi parametrlərlə sıx əlaqədədir. Neoklassik nəzəriyyənin tərəfdarları, məsələn, P. Samuelson və R. Hall, əmək bazarında əmək haqqının tələb və təklif vasitəsilə formalaşdığını vurğulayırlar və hesab edirlər ki, bazar mexanizmi özü-özünü tənzimləyir, bu da uzunmüddətli tarazlığın təmin olunmasına gətirib çıxarır (Samuelson & Hall, 2011). Bu yanaşma, xüsusilə sərbəst bazar iqtisadiyyatlarında əmək bazarının iqtisadi stabilliyi təmin edən avtomatik mexanizm kimi rolunu önə çıxarır və iqtisadçılar tərəfindən geniş qəbul olunmuşdur.

İqtisadi nəzəriyyədə əmək bazarının makroiqtisadi göstəricilər sistemində yeri müxtəlif elmi yanaşmalar çərçivəsində izah olunur. Klassik iqtisadçılar, o cümlədən Adam Smit, əmək bazarını özünü tənzimləyən mexanizm kimi qiymətləndirir və əmək haqqının tələb və təklif vasitəsilə formalaşdığını qeyd edirlər. Smitin *"bazarın görünməz əli"* konsepsiyası göstərir ki, sərbəst bazar mexanizmi özü-özünü tənzimləyərək əmək bazarında tarazlığı təmin edir və işsizlik yalnız könüllü xarakter daşıyır (Smit,

1776). Bu yanaşma əmək bazarının uzunmüddətli perspektivdə iqtisadi sabitliyi qoruyan əsas mexanizm olduğunu vurğulayır. Həmçinin, klassik nəzəriyyə əmək bazarındakı dəyişikliklərin qiymət siqnalları vasitəsilə resursların daha səmərəli bölüşdürülməsini təmin etdiyini bildirir və bunun nəticəsində iqtisadi artımın təşviq olunduğunu göstərir.

Keynsçi iqtisadi nəzəriyyə isə əmək bazarının fəaliyyətində dövlət müdaxiləsinin vacibliyini xüsusi vurğulayır. John Maynard Keynes öz *"The General Theory of Employment, Interest and Money"* əsərində qeyd edir ki, sərbəst bazar mexanizmləri hər zaman tam məşğulluğu təmin edə bilmir, iqtisadi böhran dövrlərində qeyri-tam məşğulluq halları arta bilər və dövlətin fiskal və monetar siyasət vasitəsilə bu boşluqları doldurması vacibdir (Keynes, 1936). Bu yanaşmaya görə, dövlətin aktiv rolu iqtisadi stabilliyi təmin edir, işsizliyin səviyyəsini azaldır və məşğulluğu artırmaq üçün bir sıra proqramlar həyata keçirilməlidir. Keynsçi yanaşma xüsusilə 1929-1933-cü illərdəki Böyük Depressiya dövründə əmək bazarının dövlət siyasəti ilə dəstəklənməsinin zəruriliyini ortaya qoymuşdur və bu, müasir makroiqtisadi siyasətin əsas prinsipinə çevrilmişdir.

Makroiqtisadi göstəricilər sistemində əmək bazarının yerini müəyyən edən əsas indikatorlardan biri məşğulluq səviyyəsidir. Məşğulluq iqtisadi resursların istifadəsinin effektivliyini və iqtisadi artım potensialını əks etdirən mühüm göstəricidir. İqtisadçı N. Gregory Mankiv və digər müasir makroiqtisadçılar qeyd edirlər ki, məşğulluğun səviyyəsi ölkənin iqtisadi performansının göstəricisi olmaqla yanaşı, sosial rifahın artırılmasında da həlledici rol oynayır (Mankiw, 2020). Məşğulluğun artması istehsalın genişlənməsinə, gəlirlərin artmasına, vergi gəlirlərinin çoxalmasına və sosial xərclərin optimallaşmasına səbəb olur. Bunun əksinə olaraq yüksək işsizlik səviyyəsi iqtisadi potensialın tam istifadə olunmadığını və resursların səmərəsiz bölüşdürülməsini göstərir. Bu səbəbdən məşğulluq indikatoru yalnız əmək bazarı üçün deyil, həm də ölkənin ümumi iqtisadi siyasətinin qiymətləndirilməsi üçün vacibdir.

Əmək bazarının makroiqtisadi göstəricilər sistemində digər mühüm rolu əmək məhsuldarlığı ilə bağlıdır. Əmək məhsuldarlığı istehsal prosesində əmək resurslarından istifadə səmərəliliyini xarakterizə edir və iqtisadi artımın əsas amillərindən biri hesab olunur. P. Samuelson və digər neoklassik iqtisadçılar əmək məhsuldarlığını iqtisadi artımın mühüm determinantlarından biri kimi vurğulayırlar, əmək məhsuldarlığının yüksəlməsi texnoloji inkişaf, insan kapitalının artması və istehsalın modernləşdirilməsi ilə sıx bağlıdır (Samuelson & Nordhaus, 2010). Bu göstərici ölkənin beynəlxalq rəqabət qabiliyyətinin formalaşmasında, iqtisadi artım tempinin yüksəlməsində və resursların daha səmərəli istifadəsində kritik rol oynayır.

Bundan əlavə, əmək bazarı göstəriciləri makroiqtisadi sabitliyin təmin edilməsində mühüm analitik alət kimi istifadə olunur. İşsizlik səviyyəsi, əməkhaqqı dinamikası və işçi qüvvəsinin iştirak səviyyəsi kimi indikatorlar iqtisadi siyasətin effektivliyinin qiymətləndirilməsi üçün əsas məlumat mənbəyi rolunu oynayır. Məsələn, işsizlik səviyyəsinin artması iqtisadi aktivliyin zəiflədiyini göstərir və hökumətin iqtisadi stimullaşdırıcı tədbirlər həyata keçirməsini zəruri edir.

Əmək bazarı makroiqtisadi sistemin mühüm struktur elementlərindən biri olmaqla digər əsas makroiqtisadi göstəricilərlə qarşılıqlı və çoxşaxəli əlaqə şəraitində fəaliyyət göstərir. Bu əlaqələr iqtisadi artım, inflyasiya, investisiya, istehlak və məhsuldarlıq kimi fundamental göstəricilərin formalaşmasına birbaşa təsir edir. Əmək bazarında baş verən dəyişikliklər həm iqtisadi fəaliyyətin ümumi səviyyəsini müəyyən edir, həm də iqtisadi siyasətin prioritet istiqamətlərinin formalaşdırılmasında mühüm rol oynayır. Bu baxımdan əmək bazarının makroiqtisadi göstəricilər sistemində rolu yalnız sosial xarakter daşımır, həm də iqtisadi dinamikanın əsas determinantlarından biri kimi çıxış edir.

Əmək bazarı ilə makroiqtisadi artım arasında ən mühüm əlaqə məşğulluq səviyyəsi və ümumi daxili məhsul (ÜDM) arasındakı qarşılıqlı asılılıqla izah olunur. İqtisadi nəzəriyyədə bu əlaqə tez-tez *"Okun qanunu"* çərçivəsində təhlil edilir. Arthur Okunun fikrincə, işsizlik səviyyəsində baş verən dəyişikliklər iqtisadi artım tempinə birbaşa təsir göstərir; işsizliyin artması istehsal potensialının tam istifadə olunmadığını göstərir və nəticədə ÜDM-in real səviyyəsi potensial səviyyədən aşağı olur (Okun, 1962). Əksinə, məşğulluğun artması istehsalın genişlənməsinə və iqtisadi aktivliyin yüksəlməsinə səbəb

olur. Bu səbəbdən əmək bazarının vəziyyəti ölkənin iqtisadi artım potensialının qiymətləndirilməsində əsas indikatorlardan biri hesab edilir.

Əmək bazarı ilə inflyasiya arasında mövcud olan əlaqə isə iqtisadi ədəbiyyatda *"Phillips əyrisi"* konsepsiyası vasitəsilə izah olunur. Bu yanaşmaya görə qısamüddətli dövrdə işsizlik səviyyəsi ilə inflyasiya arasında tərs əlaqə mövcuddur. A. W. Phillips göstərir ki, işsizliyin azalması əmək bazarında əməkhaqqı təzyiqinin artmasına səbəb olur və nəticədə qiymət səviyyəsinin yüksəlməsi müşahidə edilir (Phillips, 1958). Eyni zamanda, yüksək işsizlik səviyyəsi əməkhaqqı artımının zəifləməsinə və inflyasiya tempinin aşağı düşməsinə gətirib çıxarır. Bu qarşılıqlı əlaqə makroiqtisadi siyasətin formalaşdırılmasında mühüm əhəmiyyət daşıyır və dövlətin monetar və fiskal siyasət alətlərinin tətbiqində nəzərə alınır. Phillips əyrəsi ənənəvi olaraq işsizlik səviyyəsi ilə inflyasiya arasında tərs əlaqəni müəyyən dövr üçün göstərir. Lakin müasir dövrdə bir çox hallarda həm inflyasiya, həm də işsizliyin eyni vaxtda yüksəlməsi nəticəsində staqflasiya müşahidə olunur.

Əmək bazarının makroiqtisadi göstəricilərlə əlaqəsinin digər mühüm istiqaməti investisiya və kapital yığımı ilə bağlıdır. İnsan kapitalının səviyyəsi, işçi qüvvəsinin peşə hazırlığı və əmək məhsuldarlığı investisiya mühitinin formalaşmasında mühüm rol oynayır. Yüksək ixtisaslı və məhsuldar əmək resursları mövcud olduqda iqtisadiyyat daha çox investisiya cəlb etmək imkanına malik olur, bu isə istehsalın modernləşdirilməsinə, texnoloji yeniliklərin tətbiqinə və uzunmüddətli iqtisadi artımın təmin edilməsinə şərait yaradır. Əksinə, əmək bazarında struktur problemlərin mövcudluğu investisiya fəallığını zəiflədə və iqtisadi inkişaf tempini məhdudlaşdıra bilər (Keynes, 1936).

Makroiqtisadi təhlildə əmək bazarının vəziyyətini qiymətləndirmək üçün müxtəlif statistik və analitik göstəricilərdən istifadə olunur. Bu göstəricilərə iqtisadi fəal əhali səviyyəsi, məşğulluq göstəricisi, işsizlik səviyyəsi, əməkhaqqı dinamikası, əmək məhsuldarlığı və işçi qüvvəsinin iştirak səviyyəsi daxildir (Mankiw, 2020). Bu indikatorlar əmək bazarında mövcud olan struktur dəyişiklikləri, regional fərqləri və sektorlar üzrə məşğulluq dinamikasını təhlil etməyə imkan verir. Eyni zamanda bu göstəricilər dövlətin sosial-iqtisadi siyasətinin effektivliyinin qiymətləndirilməsində də mühüm rol oynayır.

Əmək bazarının makroiqtisadi göstəricilər sistemində təhlili zamanı struktur və institusional amillər də nəzərə alınmalıdır. Qloballaşma, texnoloji tərəqqi, rəqəmsal iqtisadiyyatın inkişafı və demoqrafik dəyişikliklər əmək bazarının strukturuna əhəmiyyətli təsir göstərir. Xüsusilə rəqəmsallaşma və avtomatlaşdırma prosesləri əmək bazarında yeni peşələrin yaranmasına və bəzi ənənəvi peşələrin əhəmiyyətinin azalmasına səbəb olur. Bu dəyişikliklər iqtisadi siyasətin əmək bazarının yeni tələblərinə uyğunlaşdırılmasını zəruri edir.

Müasir iqtisadi sistemdə dövlət əmək bazarında baş verən proseslərə müxtəlif iqtisadi və institusional alətlər vasitəsilə təsir göstərir və bu proseslər makroiqtisadi siyasətin əsas istiqamətlərindən biri kimi çıxış edir. Bu baxımdan əmək bazarı iqtisadi artımın stimullaşdırılması, işsizliyin azaldılması və insan kapitalının inkişaf etdirilməsi məqsədilə həyata keçirilən siyasətlərin əsas tətbiq sahələrindən biri hesab olunur.

Makroiqtisadi siyasət çərçivəsində əmək bazarının tənzimlənməsi ilk növbədə məşğulluğun artırılması və işsizliyin azaldılması məqsədini daşıyır (Keynes, 1936). Dövlət bu istiqamətdə fiskal və monetar siyasət alətlərindən istifadə etməklə iqtisadi aktivliyi stimullaşdırır və yeni iş yerlərinin yaradılmasına şərait yaradır. Məsələn, dövlət investisiya proqramlarının həyata keçirilməsi, infrastruktur layihələrinin genişləndirilməsi və sahibkarlığın inkişafına dəstək mexanizmləri vasitəsilə əmək bazarında məşğulluq imkanlarını artırır. Bu tədbirlər iqtisadi artımın sürətlənməsinə və əmək resurslarının daha səmərəli istifadə olunmasına imkan yaradır.

Əmək bazarının makroiqtisadi siyasətdə rolu həmçinin aktiv və passiv məşğulluq siyasətlərinin həyata keçirilməsi ilə də bağlıdır. Aktiv məşğulluq siyasəti işçi qüvvəsinin peşə hazırlığının artırılması, yenidən ixtisaslaşma proqramlarının təşkili, əmək bazarına yeni daxil olan şəxslərin məşğulluğunun təmin edilməsi və sahibkarlığın inkişafına dəstək kimi tədbirləri əhatə edir. Bu siyasətin əsas məqsədi əmək bazarında struktur uyğunsuzluqlarını azaltmaq və işçi qüvvəsinin əmək bazarının tələblərinə

uyğunlaşdırılmasını təmin etməkdir. Passiv məşğulluq siyasəti isə əsasən işsiz şəxslərin sosial müdafiəsini təmin edən mexanizmləri əhatə edir.

Əmək bazarının dövlət tərəfindən tənzimlənməsi həm də əmək münasibətlərinin hüquqi və institusional çərçivəsinin formalaşdırılması ilə bağlıdır (Smith, 1776). Əmək qanunvericiliyi işəgötürən və işçilər arasında münasibətlərin tənzimlənməsini təmin edir, əmək hüquqlarının qorunmasına və sosial ədalətin təmin olunmasına xidmət edir. Bu çərçivədə minimum əməkhaqqı səviyyəsinin müəyyən edilməsi, əmək şəraitinin yaxşılaşdırılması, iş vaxtının tənzimlənməsi və sosial təminat sisteminin inkişaf etdirilməsi kimi tədbirlər əmək bazarının sabit fəaliyyətinə mühüm təsir göstərir.

Qloballaşma və texnoloji inkişaf şəraitində əmək bazarının makroiqtisadi siyasətdə rolu daha da artır. Rəqəmsallaşma, avtomatlaşdırma və innovativ texnologiyaların tətbiqi əmək bazarında struktur dəyişikliklərə səbəb olur və yeni bacarıqların formalaşdırılmasını zəruri edir. Bu səbəbdən dövlətin iqtisadi siyasəti çərçivəsində təhsil sisteminin modernləşdirilməsi, peşə təhsilinin inkişaf etdirilməsi və insan kapitalına investisiyaların artırılması xüsusi əhəmiyyət kəsb edir (Mankiw, 2020). İnsan kapitalının inkişafı uzunmüddətli iqtisadi artımın təmin edilməsində əsas amillərdən biri kimi çıxış edir.

Bununla yanaşı, əmək bazarının tənzimlənməsi regional inkişaf siyasəti ilə də sıx əlaqəlidir (Samuelson & Hall, 2011). Müxtəlif regionlar üzrə məşğulluq səviyyəsində mövcud olan fərqlər iqtisadi inkişafın qeyri-bərabərliyinə səbəb ola bilər. Bu baxımdan regional iqtisadi proqramların həyata keçirilməsi, kənd və şəhər ərazilərində məşğulluq imkanlarının genişləndirilməsi və regional investisiya layihələrinin dəstəklənməsi əmək bazarında balansın təmin edilməsinə kömək edir.

Nəticə etibarilə, əmək bazarı makroiqtisadi siyasətin həyata keçirilməsində mühüm strateji sahə kimi çıxış edir. Dövlətin əmək bazarına yönəlmiş iqtisadi və institusional siyasətləri məşğulluğun artırılmasına, işsizliyin azaldılmasına və insan kapitalının inkişafına xidmət edir. Bu tədbirlər isə öz növbəsində iqtisadi artımın dayanıqlığını təmin edir, sosial rifahın yüksəldilməsinə və iqtisadi sistemin ümumi sabitliyinin möhkəmləndirilməsinə mühüm töhfə verir.

Sonda qeyd etmək vacibdir ki, əmək bazarının makroiqtisadi göstəricilər sistemində rolunun daha effektiv şəkildə reallaşdırılması üçün yalnız nəzəri yanaşmalar kifayət etmir, həm də real iqtisadi şəraitə uyğun çevik və məqsədyönlü siyasətlərin tətbiqi zəruridir. Mənim fikrimcə, xüsusilə rəqəmsallaşma və qloballaşma şəraitində əmək bazarının struktur dəyişikliklərinə uyğunlaşdırılması, insan kapitalına investisiyaların artırılması və innovativ məşğulluq mexanizmlərinin inkişafı prioritet istiqamət kimi çıxış etməlidir. Bu yanaşma həm makroiqtisadi sabitliyin möhkəmləndirilməsinə, həm də uzunmüddətli davamlı iqtisadi inkişafın təmin olunmasına əhəmiyyətli töhfə verə bilər.

***İstifadə edilmiş ədəbiyyat:***

**1.** Keynes, J.M. (1936). The general theory of employment, interest and money. Macmillan.

**2.** Mankiw, N.G. (2020). Principles of economics (9th ed.). Cengage Learning.

**3.** Okun, A.M. (1962). Potential GNP: Its measurement and significance. In Proceedings of the Business and Economic Statistics Section, American Statistical Association (pp. 98–104). American Statistical Association.

**4.** Phillips, A.W. (1958). The relation between unemployment and the rate of change of money wage rates in the United Kingdom, 1861–1957. Economica, 25(100), 283–299. https://doi.org/10.2307/2550759

**5.** Samuelson, P.A., & Hall, R E. (2011). Economics (19th ed.). McGraw-Hill Education.

**6.** Samuelson, P.A., & Nordhaus, W.D. (2010). Economics (19th ed.). McGraw-Hill Education.

**7.** Smith, A. (1776). An inquiry into the nature and causes of the wealth of nations. W. Strahan & T. Cadell.

**I.I.Shukuru**

*Phd, Azerbaijan State University of Economics (UNEC)*

## Labor market and macroeconomic indicators: a theoretical approach

**Abstract**

*The labor market acts as one of the main components of the system of macroeconomic indicators in the modern economic system and is directly related to the country's economic growth, employment level, unemployment indicators, labor productivity and social welfare. The state of this market determines the efficient use of economic resources and the potential level of GDP, and also plays an important role in ensuring economic stability through the state's fiscal and monetary policy instruments. The labor market is of strategic importance in such areas as the implementation of both active and passive employment policies, the development of human capital, technological progress and the introduction of the digital economy, as well as the preservation of regional balance. Economic relations formed as a result of the interaction of demand and supply for labor force affect economic growth, investment, consumption and price stability through employment level and labor productivity indicators. As a result, the labor market acts as one of the main determinants of the country's sustainable economic development, increased social welfare, and ensuring macroeconomic stability.*

***Keywords:*** *labor market, employment rate, unemployment indicators, labor productivity, macroeconomic stability.*